

# Tofiq NURƏLİ - 70

Hörmətli Tofiq müəlim!

Sizi - istedadlı şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 4 iyul 1953-cü ildə Quba rayonunun Yerfi kəndində anadan olmusunuz. Azərbaycan Tibb Universitetinin 1-ci müalicə profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmisiniz. Uzun illərdir ixtisasınız üzrə işləyirsiniz. "Şəfqət" qəzetini yaratmış və 5 il bu qəzetin baş redaktoru olmusunuz. Siz hələ tələbə ikən - 1976-cı ildə Azərbaycan Yazıçılar İttifaqının və Respublika Komsomolu MK-sının birgə keçirdiyi Gənc Yazıçıların 1-ci Respublika müsabiqəsinin qaliblərindən biri olmusunuz. İlk kitabınız Azərbaycan Yazıçılar İttifaqının sədri İmran Qasımovun məktubu ilə "Gənclik" nəşriyyatına çap üçün tövsiyə olunub. 1984-cü ildə 4 ildən bir Moskvada keçirilən Gənc Yazıçıların 7-ci Ümumittifaq Müşavirəsində respublikamızı təmsil etmisiniz. Ölkəmiz üçün ilk dəfə olaraq müşavirənin sizin barənizdə 4 qərarı olmuşdur: SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilməsi, şeirlər kitabının Moskvada "Molodaya Qvardiya" nəşriyyatında çap olunması və s. Şeirləriniz müşavirənin təqdimatı ilə "Literaturnaya qazeta"da dərc edilmişdir. "Literaturnaya Uçyoba" jurnalında bu seminar barədə ümumiləşmiş yazıda sizin haqqınızda ayrıca rəy bildirilmişdir. İlk kitabınız -"Sehirli kəpənəklər" 1983-cü ildə "Gənclik" nəşriyyatında çap olunub.

Siz bu gün oxucular arasında geniş tanınan və sevilən şairsiniz. Şeirləriniz bir sıra dünya dillərinə tərcümə edilmişdir. "Yağışdan sonra", "Tənha bir qüssə", "Tənha payız yarpağı", "Yarpaqlarım ağrıyır", "Darıxan nəğmələr" kitablarınız ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Hörmətli Tofiq müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**